# Birinci Avropa Oyunlarının Bakıda keçirilməsinin ölkəmiz üçün əhəmiyyəti

## İyunun 12-dən 28-nə kimi davam edəcək bu idman bayramı Azərbaycanın adını Avropa tarixinə yazacaq

**"Birinci Avropa Oyunları Azərbaycanın paytaxtında ən yüksək səviyyədə keçiriləcək. Beləliklə də Bakı, Birinci Avropa Oyunlarına ev sahibliyi etməklə verdiyi töhfəyə görə, Avropa Olimpiya Komitəsi tarixinə düşəcək"**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Bu yay ölkəmiz beynəlxalq əhəmiyyətli daha bir tədbirə ev sahibliyi edəcək. İyun ayının 12-28-də Azərbaycanın paytaxtı Bakı şəhərində ilk Avropa Oyunları keçiriləcək. Dünya tarixində ilk dəfə paytaxtımızda reallaşacaq Oyunlarda 49 ölkədən 30-a yaxın idman növü üzrə 6 mindən çox idmançının yarışacağı gözlənilir.

Avropanın 49 Milli Olimpiya Komitəsini birləşdirən Beynəlxalq Olimpiya Komitəsinin dəstək verdiyi Avropa Oyunları bir çox innovativ idman növünü özündə cəmləşdirir. Sözügedən idman növlərinə aerobika, akrobatika, batut, idman gimnastikaları, bədii gimnastika, atıcılıq, atletika, avarçəkmə, badminton, basketbol, BMX velosiped idmanı, boks, çimərlik futbolu və voleybolu, cüdo, dağ və şosse velosipedi idmanları, güləş, kamandan oxatma, karate, qılıncoynatma, sambo, sinxron üzgüçülük, stolüstü tennis, su polosu, suya tullanma, taekvondo, triatlon, üzgüçülük və voleybol daxildir. Artıq Avropa Komitələrinin bütün üzvləri yarışlarda iştirak etmək və mübarizə aparmaq üçün Xəzər dənizinin sahilində yerləşən paytaxt şəhərimizə dəvət olunublar. Avropa Oyunları Komitələrinin (AOK) layihələndirdiyi Oyunlar bu qurum tərəfindən idarə olunacaq və Bakı 2015 Avropa Oyunları Əməliyyat Komitəsinin (BAOƏK) dəstəyi ilə həyata keçiriləcək.

Qeyd edək ki, 2012-ci il dekabrın 8-də Romada keçirilmiş 41 saylı AOK-un Baş Assambleyasında birinci Avropa Oyunlarına ev sahibliyi etmək şərəfi Bakıya verilib. Eyni zamanda, müəyyən olunub ki, Avropa Oyunları hər dörd ildən bir keçiriləcək və növbəti yarışlar 2019-cu ildə baş tutacaq. Belə bir beynəlxalq əhəmiyyətli tədbirin Bakıda keçirilməsi barədə dəqiq qərar qəbul edildikdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla birinci Avropa Oyunlarına məsul olan Təşkilat Komitəsi yaradılıb. Komitəyə Azərbaycanın birinci xanımı, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sədrlik edir. Təşkilat Komitəsinin sədrinin qərarı ilə BAOƏK yaradılıb. BAOƏK-in baş icraçı direktoru gənclər və idman naziri Azad Rəhimov və baş əməliyyat direktoru Saymon Kleqdir. İlk Avropa Oyunlarının Əməliyyat Komitəsi kimi BAOƏK Oyunların yüksək standartlara uyğun şəkildə planlaşdırılması, sınaqdan keçirilməsi və həyata keçirilməsi üçün bütün lazımi təcrübə və işçi qüvvəsini təmin etməyə görə məsuliyyət daşıyır. Artıq Azərbaycanın birinci xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın rəhbərliyi ilə bu möhtəşəm idman yarışının dünyada təbliğ olunmasına da başlanılıb. Bilavasitə Təşkilat Komitəsi sədrinin iştirakı ilə Fransada, İtaliyada, İsveçdə, Almaniyada, Rusiyada təqdimat mərasimləri keçirilib. Bütün dünyanın diqqəti Azərbaycanda keçiriləcək Avropa Oyunlarına yönəldilib.

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsinin ölkəmiz üçün əhəmiyyətinə gəlincə, əvvəlcə onu qeyd edək ki, Bakı biznes, turizm və idman sahələrində sürətlə Avropa üzrə regional mərkəzə çevrilməkdədir. Birinci Avropa Oyunlarının Bakıda keçirilməsindən də gözlənilən odur ki, idman Azərbaycanın gələcəyi adına Avropa Oyunlarının ən böyük irsi olacaq. Bakı 2015 Avropa Oyunlarının əsas məqsədlərindən biri idmanın potensialını geniş kütlə səviyyəsində artırmaqdan və idmanı birbaşa Azərbaycan xalqının gündəlik həyatına daxil etməkdən ibarətdir. Oyunlardan sonra 11 daimi yeni və bərpa olunmuş obyekt miras qalacaq. Bu obyektlər gələcək beynəlxalq idman yarışları və əyləncə xarakterli tədbirlərin keçirilməsi baxımından bütün imkanlara sahib olacaq. Həmin yeni obyektlər Azərbaycanın gəncləri və idmançıları üçün özündən sonra faydalı irs qoyacaq. Bununla yanaşı, Azərbaycan hökuməti indiyədək bir sıra vacib nəqliyyat layihələrinə investisiya qoyub. Bu layihələr Oyunlara qədər tam hazır olacaq və ölkəyə böyük turizm, ticarət və iqtisadi faydalar qazandıracaq. Belə layihələrə metro və ictimai nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni avtomobil yollarının çəkilməsi və Bakını Türkiyə, Gürcüstan və Çinlə birləşdirəcək beynəlxalq dəmiryol şəbəkəsinin inkişaf etdirilməsi daxildir.




Bundan başqa, yeni beynəlxalq hava limanı terminalına daha 12 giriş qapısı əlavə edilməklə bütövlükdə Heydər Əliyev adına Beynəlxalq Hava Limanında bir il ərzində xidmət göstərilən sərnişin sayının beş milyona çatdırılması nəzərdə tutulub. Gücləndirilmiş uçuş cədvəlləri 2015-ci ilin iyununadək qüvvədə olacaq. Bununla da Bakı öz aviasiya potensialını artırmağa və hava nəqliyyatı üçün önəmli qovşaq şəhər ünvanını qoruyub saxlamağa çalışacaq. Oyunlara hazırlıq ərəfəsində şəbəkə infrastrukturunda aparılan təkmilləşdirmə işləri çərçivəsində genişzolaqlı internetin Bakının hər yerinə çəkilməsi də texnoloji təcrübə və biliyə malik gənc şəhər əhalisi üçün uzunmüddətli faydalara səbəb olacaq.

Oyunlardan əldə edilən irsin Bakı üçün bir sıra ictimai və ekoloji faydaları da olacaq. Belə ki, paytaxtın şərqinə tərəf salınan Ağ Şəhər əvvəlki sənaye torpaqlarının 621 hektarını əhatə edən irihəcmli yenidənqurma layihəsidir. Dənizkənarı bulvarın genişləndirilməsi layihəsi çərçivəsində mədəni, idman və əyləncə xarakterli fəaliyyətləri həyata keçirə bilmək üçün əhaliyə 6 kilometr uzunluğunda sahilyanı ərazi təqdim olunub. Şəhərin yaşıllaşdırılması layihəsi çərçivəsində isə Avropa Oyunlarınadək 5 min ağacın əkilməsi nəzərdə tutulub.

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsinin əhəmiyyəti Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva tərəfindən də qeyd olunub. O, Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil edilməsinin Azərbaycan üçün əsas və ümumi məqsəd olduğunu vurğulayıb. Bildirib ki, ölkəmiz bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək əzmindədir. Birinci xanım qeyd edib ki, Olimpiya Hərəkatı Avropada doğulub və sonradan bərpa olunsa da, bu vaxta qədər Avropa Oyunları keçirilməyib. O, bu Oyunları ilk dəfə təşkil etməyi, qəbul etməyi və keçirməyi ölkəmiz üçün həm böyük şərəf, həm də böyük məsuliyyət kimi qiymətləndirib: "Bu qərarı qəbul edərkən Avropa Olimpiya Komitəsi bir çox faktlara əsaslanıb. Azərbaycanda idmana dövlət tərəfindən göstərilən dəstək, idmançılarımızın uğurları, mövcud idman infrastrukturu və ölkənin ümumi inkişafı nəzərə alınıb. Azərbaycanda idmana, Olimpiya Hərəkatına dəstək dövlət siyasətinin prioritetlərindən biridir. Son 10 ildə ölkəmizdə 50-dən çox müasir Olimpiya mərkəzləri inşa olunub. Azərbaycan yaxşı anlayır ki, ilk Oyunlar, onların təşkilatı gələcək Oyunların standartlarını, səviyyəsini təmin edəcək. Baxmayaraq ki, hazırlıq üçün bizim cəmi iki il yarım vaxtımız olub, Azərbaycan bu Oyunları ən yüksək səviyyədə, Yay Olimpiya Oyunları səviyyəsində keçirmək əzmindədir. Bunun üçün bütün lazımi tədbirlər həyata keçirilib. Biz beynəlxalq idman qurumları ilə, Avropa Olimpiya Komitəsi ilə sıx əlaqədə çalışırıq. Ümidvaram ki, ilk Avropa Oyunları Azərbaycanın paytaxtı Bakıda ədalət, sağlam rəqabət, dostluq və həmrəylik şəraitində keçəcək və ölkələri, xalqları, insanları bir araya gətirərək, möhtəşəm idman bayramına çevriləcək".

Azərbaycanın dövlət başçısı İlham Əliyev, Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitələrinin prezidenti Patrik Hikki və digərləri ilə yanaşı, ölkəmizdə fəaliyyət göstərən yerli QHT rəhbərləri, ictimai-siyasi fəaliyyətlə məşğul olan şəxslər də Birinci Avropa Oyunlarının ölkəmiz üçün əhəmiyyətini xüsusi olaraq vurğulamaqdadırlar. **Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri, politoloq Rufiz Qonaqov** bu barədə "Kaspi"yə açıqlamasında bildirib ki, iyunun 12-dən 28-nə kimi davam edəcək bu idman bayramı Azərbaycanı Avropa tarixinə yazacaq. Onun fikrincə, əsrlər keçəndən sonra da Azərbaycanın adı Avropanın idman tarixində qalacaq, müxtəlif viktorinalarda, yarışmalarda hər zaman səslənəcək. Politoloq Birinci Avropa Oyunlarının ölkəmizin dünyaya yaxından tanıdılması üçün əlverişli imkan olduğunu da qeyd edib: "Zaman, əsr, texnologiya, Avropa Oyunlarının məkanı dəyişəcək, amma ilk Oyunların təşkilatçısı, həmin Oyunlara ev sahibliyi edən Azərbaycanın birinciliyi dəyişməyəcək. Yaşından, dinindən, irqindən, siyasi mövqeyindən, ölkəmizə münasibətindən asılı olmayaraq hər kəsin dilində Azərbaycan ilk Oyunların təşkilatçısı kimi anılacaq. Dünyada uşaqdan-böyüyə hər kəs bilir ki, ilk Olimpiya Oyunları qədim Yunanıstanda keçirilib. Heç bir tarixə malik olmasaydı belə, Yunanıstanın bu tarixi ilkə imza atması onun haqqında dünyaya yetərincə məlumat vermək gücündədir. İndi də növbə Azərbaycanındır. Bundan başqa, müasir dövrdə böyük idman yarışları sadəcə, idman hadisəsi deyil, həm də iqtisadi və siyasi məqsədlər daşıyır. Böyük yarışlar təşkilatçı ölkələrdə turizmin inkişafına təkan verir, milli iqtisadi brendlərin dünya miqyasında tanınmasına səbəb olur. Eyni zamanda, bu kimi idman yarışlarına ev sahibliyi edən ölkələrin siyasi hədəfləri də olur. Ermənistan tərəfindən təcavüzə məruz qalmış, torpaqlarının 20 faizi işğal altında qalan, XX əsrin ən böyük cinayətlərindən biri olan Xocalı soyqırımı kimi faciə ilə üzləşmiş, 1 milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün ev sahibliyi edəcəyi Oyunlar bu faciələrimizi dünyaya çatdırmaq baxımından da böyük fürsətdir".

**Millət vəkili Çingiz Qənizadə** də hesab edir ki, Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmizin beynəlxalq aləmdəki nüfuzuna müsbət təsir edəcək. Onun sözlərinə görə, beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən 2012-ci ildə "Eurovision", 2015-ci ildə Avropa Oyunları kimi mədəni və idman yarışlarının Bakıda keçirilməsi on minlərlə xarici vətəndaşın Azərbaycandakı reallıqları əyani şəkildə görməsinə imkan yaradıb və yaradacaq: "Televiziya vasitəsilə bu yarışları izləyən milyonlarla tamaşaçıda Azərbaycan barədə real təsəvvür formalaşacaq. Bununla yanaşı, idman tədbirləri hər zaman dostluq və sülh rəmzi olub. Bu tədbirin keçirilməsi ilə Azərbaycan özünün dini tolerantlığını, müstəqil və sülhsevər ölkə olduğunu, bugünkü inkişafının reallıqlarını beynəlxalq aləmə bir daha göstərə biləcək. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da beynəlxalq əhəmiyyətli tədbirlərin uğurla həyata keçirilməsi yalnız müsbət imic formalaşdıracaq".

Son olaraq, qeyd edək ki, paytaxt Bakımızın beynəlxalq səviyyəli tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməsi Azərbaycanın nüfuzunu, etibarını dünyada daha da artırmaqdadır. Məhz bu nüfuzun, etibarın, ölkəmizdə həyata keçirilən hərtərəfli inkişafın nəticəsində AOK Baş Assambleyasının 2012-ci ildə qəbul etdiyi qərarın ardınca 2013-cü ildə İslam Həmrəyliyi İdman Federasiyasının Baş Assambleyası da IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmək hüququnu Azərbaycana həvalə edib. Heç şübhə etmirik ki, "Eurovision-2012", Birinci Avropa Oyunları kimi, IV İslam Həmrəyliyi Oyunları da Bakıda yüksək səviyyədə keçiriləcək. Bu isə növbəti dəfə Azərbaycanın idman ölkəsi kimi dünyadakı nüfuzuna müsbət təsir göstərəcək.

**Rufik İSMAYILOV**

***Yazı Milli Olimpiya Komitəsinin və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim olunur.***